**2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan verilən şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimov və Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 340 və 341 saylı müraciətlər üzrə**

# BİRGƏ RƏYİ

Bakı şəhəri 23 fevral 2020-ci il

Biz, ekspert qrupunun üzvləri Ramiz İbrahimov və Bəxşeyiş Əsgərov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə qeydə alınmış namizədlər Nəcəfov Sultan Sabir oğlu və Rəhimov Elçin Akif oğlunun 2020-ci il fevralın 20-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş həmin seçki dairəsi dairə seçki komissiyasının 18 fevral 2020-ci il tarixli müvafiq olaraq 15/55 və 15/56 saylı qərarlarının mübahisələndirilməsinə və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsinə dair müraciətlərini araşdıraraq **m ü ə y y ə n e t d i k**.

Müraciətlər eyni məzmunlu olduğundan və 29 saylı Səbail seçki dairəsinin eyni seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizədlər müraciətdə səsvermə günü 29 saylı Səbail seçki dairəsinin 5, 16, 22, 27 və 30 saylı seçki məntəqələrindən əldə etdikləri səsvermənin nəticələrinə dair protokolların nüsxələri ilə Mərkəzi Seçki Komissiyasına təqdim edilən rəsmi protokollar arasında uyğunsuzluq olduğunu, həmin seçki məntəqələrinin bəzilərində baş verən qanun pozuntularını təsdiq edən video görüntülərin olduğunu iddia edərək, seçki dairəsinin 17 seçki məntəqəsi üzrə yol verilmiş pozuntuları nəzərə alaraq, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişlər. Şikayətə 2 ədəd CD-R disk və 5 ədəd möhürlü, imzalı protokol nüsxəsi əlavə edilmişdir.

Araşdırma çərçivəsində şikayətçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların araşdırmada və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Müraciətin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələrindən sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim edilmiş rəsmi protokolları, namizədlər tərəfindən təqdim olunmuş 5 seçki məntəqəsi üzrə səsvermənin nəticələrinə dair protokolların nüsxəsini və digər seçki materiallarını əhatə etmişdir.

O da qeyd edilməlidir ki, 6 seçki məntəqəsi (1, 5, 9, 11, 17, 25 seçki məntəqələri) üzrə səsvermənin nəticələri Mərkəzi Seçki Komissiyasının həmin seçki dairəsindən qeydə alınmış digər namizədin şikayətinə baxılması haqqında 18 fevral 2020-ci il tarixli 26/293 saylı qərarı ilə etibarsız sayılması nəzərə alınmalıdır.

Təqdim edilmiş 5, 16, 22, 27 və 30 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair beş protokol nüsxəsinə baxış keçirilərkən müəyyən edildi ki, məlumatları mübahisələndirilən 5 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilmişdir.

Araşdırma zamanı şikayətə əlavə edilən və məntəqə seçki komissiyalarından əldə edilməsi iddia olunan səsvermənin nəticələrinə dair protokolların nüsxələrinin rəsmi təqdim

edilmiş protokollarla eyni olub-olmamasını müəyyən etmək üçün onlara müqayisəli baxış keçirilmiş və müəyyən edilmişdir ki, seçki dairəsinin 16, 27 və 30 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair müvafiq qaydada düzgün tərtib və təsdiq olunmuş protokollarının nüsxəsində və həmin seçki məntəqələri üzrə tərtib edilərək rəsmi təqdim edilmiş protokollardakı məlumatlar eynilik təşkil edir.

Araşdırmaya təqdim edilmiş 22 saylı seçki məntəqəsindən əldə edilməsi iddia olunan səsvermənin nəticələrinə dair möhürlü və imzalı protokolun nüsxəsindəki imzalarla rəsmi protokolda komissiya üzvlərinin imzalarının fərqli olduğu şübhə doğurduğundan xüsusi biliyə malik xəttşünas ekspertlər dəvət edilərək həmin imzalar araşdırılmışdır. Ekspertlər tərəfindən verilmiş rəyə əsasən protokolların nüsxələrindəki imzalar rəsmi protokollardakı imzaları icra etmiş şəxslər tərəfindən deyil, müxtəlif şəxslər tərəfindən icra olunmuşdur. Müəyyən olunmuş bu halla bağlı 22 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının sədr və üzvlərinin izahatları alınmışdır. Həmin izahatlarda göstərilir ki, səsvermənin nəticələrinə dair fərqli məlumatlar olan protokol snüsxəsindəki imzalar və təsdiq onlar tərəfindən icra edilməmişdir. Belə olan halda həmin protokolların nüsxələri hüquqi nəticə doğuran sübut kimi qiymətləndirilə bilməz.

29 saylı Səbail seçki dairəsinin 23 saylı seçki məntəqəsində quraşdırılmış veb-kameranın görüntülərindən, həmçinin sosial şəbəkələrdə yayımlanmış və namizədlər tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcılarında olan görüntülərin digər seçki materialları ilə birlikdə araşdırılması zamanı həmin seçki məntəqəsində seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntusu aşkar edilmişdir ki, bu da seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsasdır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, 23 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı həmin hissədə ləğv olunmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə   g ə l d i k :**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə qeydə alınmış namizədlər Nəcəfov Sultan Sabir oğlu və Rəhimov Elçin Akif oğlunun 20 fevral 2020-ci il tarixli 340 və 341 saylı müraciətləri qismən təmin edilsin, 23 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız sayılsın.

2. 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının 18 fevral 2020-ci il tarixli 15/55 və 15/56 saylı qərarları 23 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilsin, qalan hissələrdə dəyişdirilmədən saxlanılsın.

3.Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytina yerləşdirilsin) və surəti muraciət etmiş şəxslərə göndərilsin.

**Ekspert qrupunun üzvləri** **Ramiz İbrahimov**

**Bəxşeyiş Əsgərov**